# *Qreq LAFLİN:*

# "Mən Heydər Əliyevi Orta Asiyanın Corc Vaşinqtonu adlandırıram"

"1994-cü ildə Nyu Yorkda konfrans zamanı Prezident Heydər Əliyevi çıxış etməzdən əvvəl təqdim etməyimi istədilər. Mən onun haqqında oxudum. Kimsə mənə onun tərcümeyi-halı və çox təsirli keçmişi haqqında məlumat verdi. O, Brejnev illərində Siyasi Büroda olan yeganə qeyri-rus idi. Onun Azərbaycanı Sovet İttifaqından ayırmaq üçün apardığı siyasi fəaliyyəti məni heyran etdi".

AZƏRTAC-ın məlumatına görə, bu sözləri keçmiş amerikalı konqresmen Qreq Laflin Azərbaycanın ABŞ-dəki səfirliyində keçirilən tədbir zamanı çıxışında deyib. O, Heydər Əliyevi Orta Asiyanın Corc Vaşinqtonu adlandırdığını bildirib. Keçmiş konqresmen Ulu Öndərin vəfatından sonra Vaşinqtonda keçirilən anım tədbirini xatırladıb və orada çıxış etdiyini deyib.

"Mən hər kəsə onu Corc Vaşinqtona bənzətdiyimi xatırlatdım. Onun etdiklərinə baxanda müəyyən oxşarlıqların olduğunu görürük. Təbii ki, tam eyni deyil. Çünki heç bir iki ölkə eyni deyil. Amma bu gün sizə deyə bilərəm ki, Rusiyanın heç bir yerindən keçməyən Bakı-Ceyhan boru kəməri Heydər Əliyev olmasaydı, mövcud olmazdı. Mən bu ölkəni sevirəm. İnsanlar çox mehribandır. Dini cəhətdən tolerantdır və bu bir çox ölkədə yoxdur", - deyə konqresmen əlavə edib.

Azərbaycan. - 2025.- 13 dekabr (№ 263).- S.9.